**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**

**ÜZEYİR HACIBƏYLİ adına BAKI MUSİQİ AKADEMİYASI**

*Əlyazması hüququnda*

**SƏADƏT SADAY QIZI VERDİYEVA**

# AZƏRBAYCAN XANƏNDƏLİK SƏNƏTİNİN İNKİŞAFINDA İSLAM RZAYEVİN ROLU

**6213.01 – Musiqi sənəti**

Sənətşünaslıq üzrə fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim olunmuş dissertasiyanın

**A V T O R E F E R A T I**

**Bakı – 2016**

*Dissertasiya işi Azərbaycan Milli Elmlər Akademiyasının Memarlıq və İncəsənət İnstitutunun "Azərbaycan xalq musiqisinin tarixi və nəzəriyyəsi" şöbəsində yerinə yetirilmişdir.*

| | |
|---|---|
| **Elmi rəhbər:** | **Akif Nüsrət oğlu Quliyev**<br>Əməkdar incəsənət xadimi,<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, professor |
| **Rəsmi opponentlər:** | **Cəmilə İsmayıl qızı Həsənova**<br>sənətşünaslıq üzrə elmlər doktoru, dosent |
| | **Fəttah Xalıq oğlu Xalıqzadə**<br>sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent |
| **Aparıcı təşkilat:** | **Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin "Musiqi tarixi və nəzəriyyəsi" kafedrası** |

Müdafiə 30__ sentyabr 2016-cı ildə saat 14:00-da Bakı Musiqi Akademiyasının nəzdində yaradılmış F/D 02.151 Dissertasiya Şurasının iclasında keçiriləcək.

Ünvan: AZ 1014, Bakı şəhəri, Şəmsi Bədəlbəyli küç., 98.

Dissertasiya ilə Bakı Musiqi Akademiyasının kitabxanasında tanış olmaq olar.

Avtoreferat ____ avqust 2016-cı ildə göndərilmişdir.

Dissertasiya şurasının elmi katibi:
sənətşünaslıq üzrə fəlsəfə doktoru, dosent **H.V.Məmmədova**

## DİSSERTASİYANIN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı**. Azərbaycan xanəndəlik sənəti uzun və şərəfli tarixi inkişaf yolu keçmişdir. Məhz bu sənətin layiqli nümayəndələri olan ustad xanəndələr sayəsində çoxəsrlik və zəngin ənənəyə malik Azərbaycan muğamları, təsnif və mahnıları şifahi şəkildə nəsildən-nəslə ötürülərək müasir dövrümüzədək gəlib çatmışdır. Hər yeni gələn xanəndələr nəsli muğam ustadlarının zəngin irsini qoruyub saxlamaqla yanaşı, həm də ondan bəhrələnmiş və bu xəzinəyə öz yeni töhfələrini bəxş etmişlər. Onların hər biri Azərbaycan milli musiqi mədəniyyətində dərin izlər qoymuşlar. Belə sənətkarlardan biri də Azərbaycan xanəndəlik məktəbinin layiqli davamçısı respublikanın Xalq artisti İslam Rzayev (1934-2008) olmuşdur.

İslam Rzayev yarım əsrdən artıq bir vaxt ərzində Azərbaycan muğam ifaçılıq ənənələrini yüksək səviyyədə təqdim edən və dünyada tanıdan bir sənətkar olduğundan onun keçdiyi yaradıcılıq yolunun öyrənilməsi və tədqiqi olduqca vacibdir. Ümumiyyətlə, Azərbaycan şifahi ənənəli professional musiqi irsini yaşadan, onu gələcək nəsillərə ötürən ustadların ifaçılıq təcrübəsinin öyrənilməsi etnomusiqişünaslığın ən aktual vəzifələrindən biridir. Lakin təəssüf ki, bu gün Azərbaycan muğam ifaçılığının inkişafında mühüm rolu olan məşhur xanəndələrimizin, xalq çalğı alətləri ifaçılarımızın sənətinin öyrənilməsi hələ də tədqiqatçı obyektindən kənarda qalmaqdadır.

Şifahi ənənəli xalq musiqisinin, muğamlarımızın və onların yaşadanların "qızıl fondu"nun qorunub saxlanılması Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin diqqət mərkəzində olmuş və bu problem bu gün də onun irsinin davamçıları olan Respublikanın prezidenti cənab İlham Əliyevin, ölkəmizin birinci xanımı, UNESKO və İSESKO-nun xoş məramlı səfiri, Heydər Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın mədəni siyasətdə irəli sürdükləri prioritet vəzifələrdən biridir. Bununla bağlı onların fəaliyyəti tükənməzdir, və xüsusilə də, Heydər Əliyev fondunun təşəbbüsü və dəstəyi ilə həyata keçirilən "muğam layihələri" qiymətlidir. Azərbaycan muğam sənətinin inkişafında xüsusi rolu olan xanəndə və ifaçıların albomlarının hazırlanıb, geniş auditoriyaya təqdim edilməsi həmişəyaşar sənətin qorunub, təbliğ edilməsində əvəzsiz faktlardan biridir.

Bu baxımdan bizim tədqiqat işimizdə Azərbaycan xanəndəlik sənətinin inkişafında rolunu və əhəmiyyətini müəyyənləşdirmək üçün ustad xanəndə İslam Rzayevin yaradıcılığının araşdırılması xüsusilə, önəmlidir və mövzunun aktuallığını şərtləndirir.

Məlumdur ki, şifahi ənənəli Azərbaycan musiqisinin milli özünəməxsusluğunun formalaşmasında hər bir ifaçının tutduğu mövqe əvəzsizdir. Azərbaycan muğam sənətinin inkişafında, bununla bağlı ifaçılıq ənənələrinin təkamülündə hər bir xanəndənin özünəməxsus müəyyənedici rolu olmuşdur.

Beləliklə, bizim tədqiqat işimizin başlıca vəzifəsi xanəndəlik sənətinin inkişafında xüsusi xidmətləri olan xalq artisti İslam Rzayevin sənətini araşdırarkən onun tutduğu mövqeyi aşkarlamaqdan ibarətdir.

**Mövzunun işlənmə dərəcəsi.** Xanəndəlik sənətinin görkəmli nümayəndələri haqqında bir çox alimlərin, sənət adamlarının publisistik yazılarında, xatirələrində zəngin informasiya toplanmışdır. Tədqiq etdiyimiz problemin əsasları dahi Üzeyir Hacıbəylinin elmi məqalə və məruzələrində qoyulmuşdur[1] xüsusilə, onun Azərbaycan xanəndələrinin fəaliyyəti, ifaçılıq xüsusiyyətləri haqqında mülahizələri bu istiqamətdə aparılan hər hansı tədqiqat işi üçün mühüm əhəmiyyət kəsb edir.

Bundan əlavə, Əfrasiyab Bədəlbəylinin "İzahlı monoqrafik musiqi lüğətin"də [2]Azərbaycan musiqi elminə dair tarixi oçerklərlə yanaşı ayrı-ayrı xanəndə və milli musiqi ifaçıları haqqında da maraqlı informasiya toplanmışdır. Lüğətdə əsasən XIX əsrin sonu və XX əsrin əvvəllərində Qarabağ xanəndələri haqqında məlumatlar diqqəti cəlb edir. Müəllif xanəndələrin konsert və toy şənliklərindəki fəaliyyətinə geniş yer ayıraraq onların ifaçılıq xüsusiyyətlərini konkret faktlarla işıqlandırır.

Azərbaycan xanəndəlik sənəti haqqında ətraflı məlumat böyük müğənnimiz Azərbaycan professional vokal sənətinin banisi Bülbülün[3] məqalə və məruzələrində geniş əksini tapmışdır.

Professor Ramiz Zöhrabovun bir sıra tədqiqat işlərində şifahi ənənəli professional musiqisinin müxtəlif janrlarının – muğam dəstgahlarının[4], təsniflərin[5], rənglərin[6], zərbi muğamların[7] nəzəri cəhətdən araşdırılması xanəndəlik sənətinin öyrənilməsində də yaxından kömək edir. Onun

---

[1]Hacıbəyli Ü. Seçilmiş əsərləri. II cild, Bakı, 1965
[2]Bədəlbəyli Ə. İzahlı-monoqrafik musiqi lüğəti. B., 1969
[3]Bülbül.Seçilmiş məqalə və məruzələr. Bakı. 1968
[4]Zöhrabov R. "Rast" muğam dəstgahının nəzəri əsasları. B.,Mars-Print, 2002
Zöhrabov R. "Çahargah" muğam dəstgahının nəzəri əsasları. Bakı, 2000
[5]Zöhrabov R. Azərbaycan təsnifləri. M., Sov.Kompozitor. 1983
[6]Zöhrabov R. Azərbaycan rəngləri (janr, lad-məqam və melodik xüsusiyyətlərin tədqiqi). B. Mars Print, 2006
[7]Zöhrabov R. Azərbaycan zərb-muğamları. Bakı, 1986

“Muğam [1] monoqrafiyasında xanəndəlik sənətinə dair qiymətli elmi mülahizələrin irəli sürülməsi bu istiqamətdə aparılan tədqiqatlar üçün dəyərli mənbədir.

XIX əsrin sonu XX əsrin əvvəllərində yaşayıb yaratmış Azərbaycan xanəndələri və instrumental muğam ifaçıları haqqında ətraflı məlumatlar Firudin Şuşinskinin“Azərbaycan xalq musiqiçiləri[2]kitabında toplanmış və işıqlandırılmışdır. Publisist xarakter daşıyan bu oçerklərdə elmi-nəzəri məsələlərə toxunulmasa da, xanəndələr haqqında verilən məlumatlar tarixi baxımdan böyük əhəmiyyət kəsb edir.

Son dövrlərdə xanəndəlik sənətinin tədqiqi ilə bağlı bir sıra tədqiqat işləri yerinə yetirilmişdir. Bunlardan R.Musayevin [3] Qarabağ xanəndəlik məktəbinin təşəkkülü və təkamülü prosesinin Azərbaycan musiqi mədəniyyətinin inkişafına təsirini öyrənən dissertasiya işi diqqəti cəlb edir. Burada tədqiqatçı Qarabağ xanəndəlik məktəbinə xas olan ifaçılıq üslubunun əsas fərqləndirici xüsusiyyətlərinin üzə çıxarılmasına çalışmışdır. İşdə Qarabağ xanəndəlik məktəbinin timsalında bütövlükdə muğam ifaçılıq ənənələrinin öyrənilməsi, onların qorunması və gələcək nəsillərə ötürülməsi məsələləri irəli sürülmüşdür.

Lakin bütün bunlarla yanaşı, ayrı-ayrı muğam ifaçılarının yaradıcılığını araşdıran tədqiqat işləri hələ də çox azdır. Bu sırada biz yalnız professor Gülnaz Abdullazadə və Telman Qəniyevin birgə hazırladıqları “Əlibaba Məmmədovun təsnifləri”-ni (2007) qeyd edə bilərik[4].

Göstərilən bütün bu tədqiqatlar Azərbaycanın müxtəlif xanəndəlik məktəblərinin (Bakı, Şamaxı, Qarabağ və s.) ifaçılıq ənənələrinin müqayisəli təhlili üçün zəmin ola bilər. Bundan əlavə, xanəndəlik sənətinin tədqiqi ilə bağlı hər hansı bir araşdırma ayrıca bir sənətkarın yaradıcılığının öyrənilməsinə də təkan verir.

Azərbaycan muğam ifaçılarının yaradıcılıq üslubunun tədqiqində son dövrdə nəşr olunan “Muğam ensiklopediyası”nın da rolu böyükdür. Heydər

Əliyev fondunun prezidenti Mehriban xanım Əliyevanın, sədri Xalq artisti, professor, Bəstəkarlar İttifaqının sədri Firəngiz Əlizadənin, redak-

---

[1]Zöhrabov R. Muğam. Bakı, Azərnəşr. 1991

[2]Şuşinski F. Azərbaycan xalq musiqiçiləri. Bakı, 1986.

[3]Musayev R. Qarabağ xanəndəlik sənətinin Azərbaycan musiqi mədəniyyətinin inkişafında rolu. Sənətşünaslıq elm. namiz....Avtoreferat.Bakı, 2004.

[4]Abdullazadə G., Qəniyev T. Əlibaba Məmmədovun təsnifləri. (dərs vəsaiti). Bakı, Adiloğlu, 2007

toru Əməkdar incəsənət xadimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru Sürəyya Ağayevanın müəllifi olduğu Ensiklopediyada diqqəti cəlb edən cəhət məşhur xanəndə və ifaçılara həsr olunan məqalələrdir. Bu məqalələrin vacib xarakter xüsusiyyəti çox yığcam şəkildə məlumatın geniş informasiya daşımasından ibarətdir[1].

Şübhəsiz, bütün bu göstərilən əsərlər Azərbaycan muğamını yaşadan və inkişaf etdirən hər bir ifaçının özünəməxsus yaradıcılıq dəsti-xəttini ayrılıqda öyrənməyə kömək edir. Bizim işimizdə baxılan mövzu ilə bağlı, xüsusi araşdırmalar aparılmamışdır. Dövri mətbuatda və televiziyada İslam Rzayevin yaradıcılığının müəyyən tərəflərinə toxunan, məlumat xarakterli çox az sayda materiala rast gəlmək olar[2].

**Tədqiqatın elmi yeniliyi** ondan ibarətdir ki, Azərbaycan musiqişünaslığında ilk dəfə olaraq görkəmli xanəndə İslam Rzayevin yaradıcılığı, ifaçılıq xüsusiyyətləri Azərbaycan xanəndəlik sənəti kontekstində araşdırılır. Bu baxımdan dissertasiyada xanəndənin konkret olaraq Qarabağ muğam məktəbi ilə varislik ənənəsinin müəyyənləşdirilməsi məsələləri irəli sürülmüş, yaradıcılığına xas olan əsas cəhətləri aşkarlanaraq təhlil olunmuşdur.

Dissertasiyada bir sıra məsələlər ilk dəfə tədqiq olunduğuna görə işin elmi yeniliyi kimi göstərə bilərik:

1. İslam Rzayevin yaradıcılığının Azərbaycan xanəndəlik sənəti kontekstində öyrənilməsi;
2. Xanəndənin yaradıcı sənətkar kimi fəaliyyətinin işıqlandırılması;
3. Onun "yenilikçi" keyfiyyətlərinin aşkarlanması və s.

Dissertasiyada ilk dəfə olaraq müəllif tərəfindən xanəndənin ifasından onun repertuarında mühüm yer tutan təsnif və muğamlar nota alınmışdır. Bu nümunələr elmi təcrübəyə ilk dəfə olaraq faktaloji material kimi daxil edilərək, onların nəzəri təhlilinin aparılması məqsədəuyğun sayılmışdır.

**Tədqiqatın metodoloji əsası.** İşdə şifahi ənənəli xalq musiqisi nümunəsində xanəndəlik ifaçılığının təhlili üçün tarixi-nəzəri metod tətbiq olunmuşdur. Bunun elmi əsasları xalq musiqisinin qanunauyğunluqlarını tədqiq edən Azərbaycan musiqişünaslarının elmi əsərlərində təsdiqini tapmış və ardıcıl olaraq inkişaf etdirilmişdir. Bu baxımdan işdə metodoloji baza kimi Üzeyir Hacıbəylinin, Əhməd Saleh İsmayılovun, Əfrasiyab

---

[1]Энциклопедия мугама. Баку, 2015

[2]Əzimli F. Muğam dünyasının sultanı. Bakı, Göytürk, 1997; Allahverdiyev E. Ürəklərdə qalaydım. Bax: "Ekran-efir. 2010, 12 noyabr; Qismətoğlu F. Ağ dünya... – "Ədalət" qəzeti -2011, 23 iyul, s.14.

Bədəlbəylinin, Ramiz Zöhrabovun, Zenfira Səfərovanın, Rəna Məmmədovanın, Gülnaz Abdullazadənin və b. əsərlərinə müraciət etmişik.

Bundan əlavə, dissertasiyada əhəmiyyətli təhlil metodlarından biri kimi müqayisəli metodu göstərə bilərik. Belə ki, məhz bu metod vasitəsilə xanəndə İslam Rzayevin ifaçılıq xüsusiyyətlərinin digər muğam ifaçıları ilə müqayisəli aspektdə tədqiqi nəticəsində onun özünəməxsus, fərdi keyfiyyətlərinin aşkarlanması mümkündür.

**Tədqiqatın məqsədi və vəzifələri.** Təqdim edilən dissertasiya işində əsas məqsəd - xanəndə İslam Rzayevin ifaçılıq sənətinin xüsusiyyətlərinin öyrənilməsidir. Bundan irəli gələrək işdə aşağıdakı vəzifələrin həlli qarşıya qoyulmuşdur.

1. İslam Rzayevin yaradıcılıq simasının formalaşmasında Azərbaycan xanəndəlik sənətinin, xüsusilə, Qarabağ muğam ifaçılığı ənənələrinin rolunu göstərmək;
2. Xanəndənin yaradıcılıq fəaliyyətinin çoxcəhətliliyini müəyyənləşdirmək;
3. Mahir muğam ifaçısı kimi qiymətləndirmək;
4. Yaradıcı potensiala malik xanəndə kimi yeni keyfiyyətlərini aşkarlamaq;
5. İfaçılıq təcrübəsində novatorluğa cəhdini işıqlandırmaq və s.

**Dissertasiya işinin predmeti** xanəndə İslam Rzayevin yaradıcılığıdır. İşin **obyektini** xanəndənin ifa etdiyi muğamların, bəstələdiyi mahnı və təsniflərin, Əhsən Dadaşovun rənglərinə verdiyi yeni həyatın nümunəsi olaraq oxuduğu "rəng-təsniflərin" nəzəri təhlili təşkil edir.

**Tədqiqatın materialı.** Dissertasiya işində İslam Rzayevin repertuarında özünə yer alan böyük musiqi materialından istifadə edilmişdir. Bura xanəndənin ifasından "Çahargah", "Rast" muğam dəstgahları, Əhsən Dadaşovun dörd "rəng-təsnif"i, öz yaradıcı məhsulu olan mahnı və təsnifləri, digər musiqi nümunələri müəllif tərəfindən nota alınaraq təhlilə cəlb edilmişdir.

**Tədqiqatın təcrübi əhəmiyyəti** ondan ibarətdir ki, dissertasiyada təqdim olunan materialdan musiqişünaslar, həmçinin, muğam ifaçıları tərəfindən dəyərli mənbə kimi istifadə edilə bilər. Bundan əlavə, dissertasiyanın əsas müddəalarından "Azərbaycan xalq musiqi yaradıcılığı"nın tədris olunduğu ali təhsil müəssisələrində (Bakı Musiqi Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti və s.) istifadə edilməsi məqsədəuyğundur. Eyni

zamanda, dissertasiyada əldə olunan ümumi nəticələrdən bu istiqamətdə çalışan digər tədqiqatçılar da faydalana bilərlər.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, yeddi yarımfəsil, nəticə, istifadə olunmuş ədəbiyyat siyahısı, notoqrafiya, saytoqrafiya, diskoqrafiya və əlavələr bölməsindən ibarətdir.

## DİSSERTASİYANIN ƏSAS MƏZMUNU

Dissertasiyanın **Giriş** bölməsində mövzunun aktuallığı əsaslandırılır, onun elmi işləmə səviyyəsi, elmi yeniliyi açıqlanır, tədqiqatın məqsəd və vəzifələri, metodoloji əsası, təcrübi əhəmiyyəti müəyyənləşdirilir.

Dissertasiyanın **"XX əsr ikinci yarısında Azərbaycan xanəndəlik sənətinin inkişafında İslam Rzayevin rolu"** kimi adlanan **I fəsli** iki bölmədən ibarətdir.Fəslin birinci bölməsi (1.1) **"Şifahi ənənəli professional musiqinin inkişafında xanəndəlik sənətinin rolu"** adlanır. Bu bölmə Azərbaycan xanəndəlik sənətinin inkişaf yolunun işıqlandırılmasına həsr olunmuşdur. Burada şifahi ənənəli professional musiqinin inkişafında Azərbaycan xanəndələrinin rolu, muğamların, təsnif və xalq mahnılarının qorunub saxlanılmasında, təbliğində, yaşadılmasında onların xüsusi əhəmiyyəti qeyd edilir. Həmçinin, Azərbaycan xanəndəlik sənətinin inkişafında XIX əsrdə fəaliyyət göstərən və özünəməxsus keyfiyyətləri ilə seçilən xanəndəlik məktəblərinin mühüm rol oynaması göstərilir. Azərbaycanın Bakı, Şuşa, Şamaxı kimi mədəniyyət mərkəzlərində mövcud olan xanəndəlik məktəbləri fərdi ifaçılıq xüsusiyyətlərinə malik olsalar da, onları vahid ümumi cəhət birləşdirirdi. Bu da şifahi ənənəyə əsaslanan professional sənətin zirvəsini təşkil edən muğamı təkmilləşdirmək, zənginləşdirmək və gələcək nəsillərə çatdırmaqdan ibarət idi.

Bu bölmədə əsil xanəndə olmaq üçün ifaçıdan hansı keyfiyyətlərin tələb olunduğu göstərilir, xanəndəlik məktəbləri haqqında ətraflı izahat verilir, Azərbaycan xanəndəlik məktəblərindən biri kimi İslam Rzayevin mənsub olduğu Qarabağ xanəndəlik məktəbinə xüsusi diqqət ayrılır, onun özünəməxsus cəhətləri göstərilir və təhlil edilir.

İslam Rzayevin Azərbaycan xanəndəlik məktəbinin Qarabağ bölgəsinə aid, xüsusi olaraq, Qarabağ xanəndələrinin ifaçılıq ənənələrinin davamçısı kimi çıxışetməsi onun yaradıcılığının bir çox aspektlərində müşahidə olunur. O, Qarabağxanəndəlik məktəbinin ənənələrini şifahi surətdə nəsildən-nəsilə ötürən görkəmli sənətkar kimi dəyərləndirilir.

Fəslin ikinci bölməsi (1.2.) **"İslam Rzayevin Azərbaycan musiqi sənətində yeri"** kimitəqdim olunur. Burada İslam Rzayevin ustad xanəndə Seyid Şuşinskinin muğam məktəbini keçməsi, onun yaradıcılıq simasının formalaşmasında dövrünün korifey sənətkarları - Seyid Şuşinski ilə yanaşı, Xan Şuşinskinin, Bülbülün, Əhməd Bakıxanovun, Əhsən Dadaşovun və başqalarının da böyük rol oynaması göstərilir. Həmçinin, xanəndənin təhsili, sənətə gəlişi, öz ustadı haqqında maraqlı məlumatları, xatirələri öz əksini tapmışdır.

Bu bölmədə İslam Rzayevin yaradıcılıq fəaliyyətinin çoxcəhətliliyi xarakterizə olunur. Onun özünəməxsus avaza, gözəl, məlahətli səsə, zəngin repertuara malik olan bir xanəndə kimi fəaliyyəti, sənət meyarları təhlil edilir, bir çox bəstəkar mahnılarının ilk ifaçısı olduğu göstərilir, onun bir pedaqoq, ustad müəllim, həm də Azərbaycan muğamının təkcə Respublikada deyil, həmçinin, bütün dünyada təbliğçisi kimi fəaliyyəti qeyd edilir. Xüsusilə, İslam Rzayevin muğamın təbliğində oynadığı rolu yaradıcılığının mühüm sahəsi kimi qiymətləndirilir. Həmçinin, onun "muğam teatrı"nın yaradılmasında mühüm rolu dəyərləndirilir.

**Dissertasiyanın "İslam Rzayevin yaradıcılığının əsas xüsusiyyətləri**" adlanan **II fəsli** uç bölmədən ibarətdir. Fəslin birinci bölməsi (2.1) "**İslam Rzayev mahir təsnif ifaçısı kimi**" adlanır və burada onun təsnif ifaçısı kimi nailiyyətləri işıqlandırılır. Xanəndənin xalqın qəlbinə, onun ruhuna yol tapmasının sirri ifa etdiyi mahnı və təsniflərin özünəməxsusluğu ilə izah edilir. Onun təsnif janrında əldə etdiyi uğurları göstərilir.

İslam Rzayevin ifa etdiyi təsniflərə öz möhürünü vurmuşdur. Göstərilən və bir çox başqa təsniflərin ilk və əvəzolunmaz ifaçısı olduğuna görə bütün bu təsniflərin məhz onun adı ilə sıx bağlı olduğu vurğulanır. İşdə xanəndənin ifasından bir sıra nümunələri nota alınaraq təhlil olunub.

Burada İslam Rzayevin həm də unudulmuş, az ifa edilən təsniflər haqqında da dərin biliyə malik olması göstərilir. Onun öz ustadlarından mənimsədiyi, öyrəndiyi zəngin məbəddən sənət adamlarına, tələbələrinə verdiyi məlumatlar dəyərləndirilir. Xüsusilə, bu baxımdan "Rahab" təsnifi və "Bayatı-Şiraz" dəstgahından olan təsnif diqqətə layiqdir. Bu təsniflər işdə nəzəri təhlil edilir.

**İkinci bölmə** (2.2) **"Əhsən Dadaşovun rənglərinin İslam Rzayevin ifasında təfsiri"**nə həsr olunmuşdur**.** Bu bölmədə İslam Rzayev nəinki artıq professional muğam ifaçılığında məlum olan təsniflərə yeni rəng qatan, həm də özü yeni-yeni təsniflərin yaranmasına səbəb olan, hətta, rəng kimi ifa olunan instrumental musiqiyə poetik mətn əlavə edərək "Rəng-

təsnif” simbiozuna nail olan xanəndə kimi təqdim olunur. Bununla da o, yenilikçi bir sənətkar kimi göstərilir. Bunlar İslam Rzayevin repertuarında xüsusi yer tutan - Zabul təsnifi (“İlk məhəbbət”), Segah təsnifi (“Peyman etdik ilk baharda”), Şur təsnifi (“Biri sənsən, biri mən”), Çahargah təsnifi (“Sənə könül verdim”) kimi tanınan rəng-təsniflərdir.

İşdə təhlil olunan rəng-təsniflərin hər biri özünəməxsus melodik strukturu, fərqli metro-ritmi, ladintonasiya xüsusiyyəti ilə seçilir. Bütün bunlarla yanaşı, hər bir təsnif maraqlı poetik mətnə malikdir. Belə ki, xanəndə hər rəngin öz xarakterinə, melodik məzmununa cavab verən poetik mətn seçmiş və bunları çox böyük zövqlə uzlaşdırmışdır.

Fəslinüçüncü **bölməsi**(2.3) **“İslam Rzayevin bəstələdiyi mahnı və təsniflər”in** tədqiqinə həsr olunmuşdur. Burada ustad xanəndə İslam Rzayevin bir bəstəkar təbiətli sənətkar kimi fəaliyyəti işıqlandırılır. Onun bəstələdiyi bir çox mahnı və təsniflər təhlil edilir. Bunlardan: “Var gülüşündə”, “Alma dərən”, “Yoxdur cahanda” (çahargah təsnifi, 1971), “Gəl inad etmə”( Şur təsnifi, 1990), “Ey gülüm, bahar gəlir” (Bəstə-nigar təsnifi, 1963), “Dağlar başı duman olar” (çahargah təsnifi, 1966) və s.

İslam Rzayevin bəstələdiyi mahnı və təsniflərin çoxu lirik xarakteri ilə xanəndənin özünəməxsus ifa tərzinə tam cavab verir. Onun bəstələri gözəl melodiyaları, maraqlı ritmik əsası və mənalı, dolğun poetik mətni ilə diqqəti cəlb edirlər. Onların xalq musiqi yaradıcılığı, muğamlarla sıx bağlılığı məqam - intonasiya və metroritmik xüsusiyyətlərinin, həmçinin, formatəşkilinin təhlili əsasında daha aydın özünü göstərir. O bu işi ilə qocaman ustadların böyük sənət ənənələrinin əsil davamçısı kimi çıxış etmişdir.

Dissertasiyanın **“İslam Rzayevin muğam ifaçısı kimi”** adlanan **III Fəsli** iki bölmədən ibarətdir. Bu fəsildə İslam Rzayevin Azərbaycan musiqi mədəniyyətinə öz dəsti-xətti olan görkəmli muğam ifaçısı kimi daxil olması göstərilir. Onun ifa etdiyi “Rast”, “Mahur-Hindi”, “Çahargah”, “Bayatı-Şiraz” muğamlarında xanəndənin yüksək peşəkarlığı və istedadı özünü parlaq nümayiş etdirmişdir. Bu dəstgahların ifasında İslam Rzayevin muğamın bütün tərkib hissələrini və qanunauyğunluqlarını özünəməxsus tərzdə təqdim etməsi diqqəti cəlb edir. Belə ki, o, bənzərsiz ifası ilə hər bir muğamın gizli məğzini və daxili mahiyyətini üzə çıxarmağa nail olmuşdur.

Xanəndə ifa etdiyi muğamın məzmun və xarakterinin düzgün verilməsi üçün hər şöbəni səciyyələndirən intonasiya və *kadans* formullarını mümkün qədər dəqiq və aydın səsləndirməyə çalışır. Məhz bu baxımdan onun oxuduğu muğamlar özünün obrazlılığı, məzmunca yetkinliyi, orijinal tembr ifadəliliyi ilə fərqlənirlər.

Fəslin birinci bölməsində (3.1) ” **İslam Rzayevin ifasında “ Çahargah”Azərbaycan muğam dəstgahının təfsiri”** xanəndənin ifasında “Çahargah” muğam-dəstgahının təhlili verilir. Təhlildə İslam Rzayev “Çahargah” dəstgahını özünəməxsus tərzdə ifa etməsi aydınlaşır. Xanəndə bu muğamın ifasında şöbə, rəng və təsniflər arasında təzadlığı artırmış və beləliklə də, muğamın dramaturji prinsiplərini daha da zənginləşdirmişdir. İslam Rzayevin təfsirində “Çahargah” dəstgahının özünəməxsusluğunu daha da dərindən nəzərə çatdırmaq üçün onun ifasından muğamı nota almağı zəruri hesab etmişik. Bu ifa xanəndənin səsindən iki dəfə lentə alınmışdır. Əvvəlcə 1960-cı ildə, sonra yenidən 1965-ci ildə, hər dəfə də Əliağa Vahidin qəzəllərinə müraciət etmişdir

**Fəslin** ikincibölməsi (3.2) **”İslam Rzayevin ifasında “Rast”Azərbaycan muğam dəstgahının təfsiri**” adlanır. Ümumiyyətlə, “Rast” muğamı bütün Yaxın və Orta Şərq xalqlarının musiqi mədəniyyətində birinci yerdə duran, əsrlər keçsə də əsaslı dəyişikliklərə uğramayan, eyni kökə malik olan “ulu” bir muğam sayılır. Bununla belə, Azərbaycanda geniş yayılan və xanəndələr tərəfindən sevilərək ifa olunan bu muğam dəstgahın şöbə və guşələrinin sayında nə qədər fərq olduğu diqqəti cəlb edir.

Bu fəsildə hər iki muğamın müqəddiməsini xanəndə bərdaşt-təsniflə yüksək registrdən başlayaraq öncədən dinləyicinin diqqətini özünə cəlb edir. Muğamların təhlilindən xanəndənin səs diapazonunun, əsasən də orta və yuxarı registrləri əhatə etmək şərtilə, üç oktavayadək ($sol^{k.ok} - mi^{3.ok}$) olduğu aşkarlanır. Dəstgahın zil şöbələrində xanəndə olduqca böyük ustalıqla muğamın dramaturji inkişafının zirvəsini, əsas emosional məna yükünü özündə daşıyan kulminasiya mərhələsini ifa edir. Burada onun zəngulələrinin axıcılığı, yüksək registrdə sərbəst surətdə səsindən istifadə etmək bacarığı önə keçir.

İstər aşağı, istərsə də yüksək registrdə oxumasından asılı olmayaraq, İslam Rzayevin böyük şövqlə, ürəkdən, emosional dolğun şəkildə təfsiri hər bir muğamın ifasında fərdi keyfiyyətlərini aşkarlamağa kömək edir. Qeyd edək ki, İslam Rzayev baxdığımız muğamların qəzəl seçimində Əliağa Vahid yaradıcılığından bəhrələnir. Seçdiyi hər bir qəzəl muğamın məzmununa və xarakterinə uyğun olaraq musiqi ilə vəhdət təşkil edir.

Dissertasiyanın **Nəticə** bölməsində aparılan araşdırmaya, təhlil olunan əsərlərə və bununla bağlı bəzi ümumiləşdirmələrə yekun vurulur.

Dissertasiyada bir daha qeyd olunur ki, İslam Rzayevin yaradıcılığı Azərbaycan xanəndəlik sənətinin inkişafında parlaq, yadda qalan səhifələrdən birini təşkil edir. Zəngin tarixi keçmişə malik olan xanəndəlik

sənətinin dəyərli ənənələrini yaşadan sənətkarın muğamların, təsniflərin, xalq mahnılarının tədrisində və təbliğində xidmətləri böyük olmuşdur.

Dissertasiyada ilk dəfə olaraq İslam Rzayevin Azərbaycan xanəndəlik sənətinin inkişafına təsir edən bir yaradıcı xanəndə kimi təqdim olunur. Belə ki, onun təkcə ifaçı-xanəndə deyil, həm də pedaqoq, bəstəkar təbiətli xanəndə, novatorluğa cəhd edən sənətkar kimi çox geniş yaradıcılıq fəaliyyəti təhlil edilir. Belə bir geniş, çoxaspektli fəaliyyəti ilə o, ustadların - Cabbar Qaryağdıoğlunun, Seyid Şuşinskinin, Zülfi Adıgözəlovun, Xan Şuşinskinin ənənələrinin layiqli davamçısı kimi qiymətləndirilir. Bütün bu yaradıcılıq keyfiyyətlərini nəzərə alaraq İslam Rzayevin Azərbaycan xanəndəlik sənətinin inkişafında oynadığı rolu belə müəyyənləşdirmək olar:

1.İslam Rzayev ilk öncə, mahir təsnif ifaçısı olmuşdur. Onun geniş diapazona malik məlahətli səsi, gözəl tembri, zəngin zövqü bütün Azərbaycan xalqının sevimli xanəndəsi olmaq statusunu qazanmağa əsas vermişdir. Təsadüfi deyil ki, yarım əsrdən artıq vaxt keçsə də, onun oxuduğu təsniflər bu gün də sevilərək dinlənilir. Xanəndənin ifasında bu təsniflər Azərbaycan musiqi mədəniyyətinin qızıl fonduna daxil edilmişdir.

O, sadəcə ifaçı deyil, həm də yenilikçi xanəndə kimi tanınmışdır. Daima inkişaf edən və yeni-yeni axtarışlar aparan xanəndənin repertuarında xalq çalğı alətləri kollektivində çalışdığı zaman görkəmli tarzən, pedaqoq Əhsən Dadaşovun rənglərinə poetik mətnlər əlavə edərək onları ilk dəfə olaraq təsnif kimi ifa etməsi də onun bu keyfiyyətini qabarıq şəkildə sübut edir. İslam Rzayev yaradıcı istedadı sayəsində şifahi ənənəli professional sənətin bu iki janrının qarşılıqlı əlaqəsinə nail olunmuşdur.

İslam Rzayevin yaratmaq həvəsi onun bir bəstəkar kimi də fəaliyyətinə təkan vermişdir. Belə ki, xanəndənin bəstələdiyi Şur təsnifi (Gəl, inad etmə”), Çahargah təsnifi (“Dağlar başı duman olur”), “Bəstə-Nigar” təsnifi (“Ey gülüm bahar gəlib”), Bayatı-Şiraz təsnifi (məsnəvi), geniş şöhrət qazanmışdır.

2. İslam Rzayev mahir muğam ifaçısı olmuşdur. Onun ifa etdiyi “Bayatı-Şiraz”, “Çahargah” (qəzəllər Ə.Vahidindir), “Şur”, “Rast” (qəzəllər Ə.Vahidindir) , ”Mahur-hindi” (qəzəllər M.M . Seyidzadənindir) muğam-dəstgahları Azərbaycan ənənəvi musiqisinin qızıl fonduna daxildir. O, muğamlara çox ciddi surətdə yanaşmış, korifey sənətkarların ənənələrinə sadiq qalmaqla yanaşı, onları özünəməxsus tərzdə, heç kimi təqlid etmədən ifa etmişdir. Bunu biz dissertasiyada təhlil etdiyimiz “Çahargah” və “Rast” muğam-dəstgahlarnın nümunəsində aydın müşahidə etdik.

3. İslam Rzayev xanəndəliklə bərabər bəstəkar mahnılarının da ilk və əvəzolunmaz ifaçısı kimi Azərbaycan musiqi mədəniyyətinə daxil olmuşdur. O, korifey sənətkarlarımızdan – Cahangir Cahangirovun, Ramiz Mirişlinin, Nəriman Məmmədovun, Adil Gərayın, HacıXanməmmədovun, Elza İbrahimovanın və bir çoxlarının mahnılarının ilk ifaçısı kimi tanınmışdır. O öz repertuarında bütövlükdə 100-dən çox mahnını parlaq ifa etdiyinə görə milyonlarla dinləyici qəlbinə yol tapmışdır və bu mahnılar əbədi olaraq xalqın yaddaşına həkk olunmuşdur.

4. İslam Rzayev ustad pedaqoq kimi də Azərbaycan xanəndəlik sənətinin inkişafında böyük rol oynamışdır. Böyük bir xanəndələr nəsli yetişdirməklə o, ustadlarından miras aldığı ənənələri yeni nəslə çatdırmış və bununla da mühüm tarixi missiyanı şərəflə yerinə yetirmişdir.

5. İslam Rzayev Azərbaycan muğamının dünyada tanınmasında və təbliğində də mühüm rol oynamışdır. Dünyanın 70-dən çox ölkəsində Azərbaycan muğamını böyük iftixarla səsləndirməsi və ucaltmasında onun xüsusi əməyi danılmazdır. Məhz Azərbaycanı ulu muğam sənətinin mərkəzi sayması nəticəsində burada "Muğam teatrı"nın yaradılması ideyasını irəli sürməsi də İslam Rzayevə aiddir. Belə ki, xanəndənin təşəbbüsü ilə belə bir unikal teatr yaradılaraq, iyirmi il bu ocağın bədii rəhbəri vəzifəsində çalışmaq ona nəsib olmuşdur.

Aparılan tədqiqatdan məlum olduğu kimi, geniş və çoxaspektli yaradıcılıq fəaliyyətinə malik olan İslam Rzayevin Azərbaycan musiqi mədəniyyətinin inkişafında xidmətləri böyükdür. Onun yaradıcılığının hərtərəfli öyrənilməsi yolunda bizim dissertasiya ilk tədqiqat işi olaraq burada sənətkarın əsas nailiyyətləri müəyyənləşmiş və aşkarlanmışdır. Lakin perspektivdə sənətkarın digər özünəməxsus cəhətlərinin, üslub xüsusiyyətlərinin öyrənilməsi durur ki, bunlar da gələcək tədqiqat işləri üçün zəngin mənbə ola bilər.

**Dissertasiyanın məzmununa uyğun olaraq müəllifin aşağıdakıelmi məqalələri çap olunmuşdur:**

1. "Xanəndə İslam Rzayevin Bəstəkar mahnılarının ilk ifaçısı kimi" // "İncəsənət və mədəniyyət problemləri" (elmi nəşr 4/22).Bakı-2007, s.162-168

2. "Şifahi ənənəli professional musiqinin inkişafında xanəndəlik sənətinin rolu" / VIII Millətlərarası türk xalq kültürü konqresi. İzmir-2011.

3. "Xanəndə İslam Rzayevin ifasında Əhsən Dadaşovun rənglərinin təfsiri" //"Konservatoriya" (elmi nəşr). № 3(25), Bakı, 2014, s.104-112

4. “XX əsrin ikinci yarısında Azərbaycan Musiqi Mədəniyyəti Kontekstində xanəndə İslam Rzayevin sənəti” / XIV Beynəlxalq elmi-praktiki konfrans məqaləsi “Türksoylu xalqların musiqi mədəniyyətinin tədqiqi problemləri”, s.82-86

5. “İslam Rzayevin Azərbaycan xanəndəlik sənətinin inkişafındakı rolu” // “Konservatoriya” Bakı-2015, s.52-56

6. “İslam Rzayevin bəstələdiyi mahnı və təsniflər” // “Musiqi dünyası” Bakı-1(65), 2015, s.69-77

7. “İslam Rzayev mahir təsnif ifaçısı kimi” // “Musiqi dünyası”. Bakı, 2015,s.5-9

8. “İslam Rzayevin ifasında “Cahargah” muğam dəstgahının təfsiri” //Tokat-Turkiyə-2015 s.969-975.

**Саадат Садай кызы Вердиева**

# «Роль Ислама Рзаева в развитии творчества ханенде в Азербайджане»

## РЕЗЮМЕ

В диссертационной работе исследуется творчество народного артиста Азербайджанской Республики Ислама Рзаева, который на протяжении более полувека на высоком уровне представлял профессию ханенде Азербайджана во всем мире. Основная цель исследовательской работы заключается в выявлении преимущественных сторон творчества Ислама Рзаева, сыгравшего особую роль в развитии творчества ханенде, и определении его места в музыкальной культуре Азербайджана.

Диссертация состоит из введения, трех глав, заключения, библиографии и раздела приложений.

**Первая глава** диссертации под названием «Роль ханенде Ислама Рзаева в музыкальной культуре Азербайджана во второй половине XX века» состоит из двух разделов. Раздел **1.1.** называется «Роль творчества ханенде в развитии профессиональной музыки устных традиций»; раздел **1.2.** – «Место Ислама Рзаева в Азербайджанской музыке». В Первой главе освещается путь развития Азербайджанского творчества ханенде, указывается на роль и значение азербайджанских ханенде на этом пути. В особенности здесь охарактеризованы влияние мастеров на формирование творческого пути Ислама Рзаева, а также, образование ханенде, его приход в творчество, творческие критерии, многосторонность его деятельности.

**Вторая глава** диссертации называется «Основные характеристики творчества Ислама Рзаева» и состоит из трех разделов. В разделе 2.1. под названием «Ислам Рзаев как умелый исполнитель народных мелодий (теснифа)» освещается деятельность ханенде в качестве исполнителя теснифа. Поясняется своеобразие исполняемых им теснифов, указываются успехи, достигнутые этим жанром. Раздел 2.2. называется «Отражение цветов Ахсана Дадашева в исполнении Ислама Рзаева». Здесь отражается обогащение поэтическим текстом таких известных инструментальных цветов, как «Забул», «Сегях»,

«Шур», «Джахаргях», занимающих особое место в репертуаре Ислама Рзаева. Раздел 2.3. под названием «Песни и теснифы, сочиняемые ханенде Исламом Рзаевым» освещает деятельность Ислама Рзаева в качестве ханенде с композиторскими способностями. В данном разделе исследуются многие песни, скомпонованные Исламом Рзаевым.

Третья глава диссертации под названием «Ислам Рзаев как исполнитель мугама» состоит их двух разделов. Раздел 3.1. называется «Отражение в исполнении ханенде азербайджанского комплексного мугама «Джахаргях»», раздел 3.2. - Отражение в исполнении ханенде азербайджанского комплексного мугама «Раст»». В этой главе указывается то, как Ислам Рзаев вошел в музыкальную культуру Азербайджана в качестве умелого исполнителя мугама, и осуществляется анализ музыкальных комплексов «Джахаргях» и «Раст» в исполнении великого ханенде.

В заключении приводятся результаты всей исследовательской работы.

**Saadat Saday Verdiyeva**

## Islam Rzayev's role in the development of Azerbaijan singing art

## SUMMARY

People's Artist of Azerbaijan, Islam Rzayev's creative activities, presenting singing art of Azerbaijan in high level and recognizing it in the entire world during the period of more than semi-century are investigated in the dissertation. Main duty of research work consists of reveal of significant features of Islam Rzayev's creative activities, having special service in the development of signing art and determination of his place in Azerbaijani music culture.

Dissertation consists of introduction, three chapters, conclusion, bibliography and attachments.

I chapter of dissertation – Singer Islam Rzayev's role consists of two divisions in Azerbaijani music culture in second half of XX century: 1.1 – Role of signing art in the development of oral traditional professional music, 1.2 – is called as "Islam Rzayev's place in Azerbaijani music art". In first chapter, development way of Azerbaijani singing art is enlightened and role and significance of Azerbaijani singers are indicated in this way. Especially, influence of masters, as well as education of singer, his entry in art, activity, artistic factors, versatility of creative activities are characterized in formation of Islam Rzayev's creative activity image.

II chapter of dissertation – Main features of Islam Rzayev's creative activities – consists of three divisions. 2.1 Activity of singer as tasnif (tambourine) performer is enlightened in the division titled "Islam Rzayev as skillful tasnif performer". Originality of tasnifs performer by him is explained and successes obtained in tasnif genre are indicated. 2.2 Enrichment and coordination of instrumental colors known as Zabul, Segah, Shur, Jahargah, having special place in Islam Rzayev's repertoire with poetic text are indicated in division titled "Classification of Ahsan Dadashov's colors in Islam Rzayev's performance". 2.3 Islam Rzayev's activity as a composer natured signer is enlightened in the division titled "Songs and tasnifs composed by Singer Islam Rzayev". Lots of songs and tasnifs, composed by him are analyzed here.

III chapter of dissertation – “Islam Rzayev as mugham performer” – consists of two divisions and are entitled as 3.1Classification of Chahargah Azerbaijani mugham dastgah in the performance of singer and 3.2 Classification of Rast Azerbaijani mugham dastgah in the performance of singer. Entry of Islam Rzayev to Azerbaijani musical culture as talented mugham performer having his own sign and analysis of Rast and Jahargah mugham dastgahs is given in his performance in this chapter.

Conducted research is accomplished in conclusion part.

Çapa imzalanıb: 03.05.2016.
Format: 60x84 1/16. Tiraj: 100.

**«Mütərcim» Nəşriyyat-Poliqrafiya Mərkəzi**
Bakı, Rəsul Rza küç., 125
tel./faks 596 21 44
e-mail: mutarjim@mail.ru

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**

**БАКИНСКАЯ МУЗЫКАЛЬНАЯ АКАДЕМИЯ имени УЗЕИРА ГАДЖИБЕЙЛИ**

*На правах рукописи*

**СААДАТ САДАЙ гызы ВЕРДИЕВА**

# РОЛЬ ИСЛАМА РЗАЕВА В РАЗВИТИИ ИСКУССТВА ХАНЕНДЕ В АЗЕРБАЙДЖАНЕ

**6213.01 – Музыкальное искусство**

**А В Т О Р Е Ф Е Р А Т**

диссертации на соискание ученой степени
доктора философии по искусствоведению

**Баку – 2016**